# PROKURORLUQ İŞÇİLƏRİNİN PEŞƏ BAYRAMI VƏ MİLLİ PROKURORLUĞUN YARADILMASININ 100 İLLİK YUBİLEYİ QEYD OLUNUB

## Lənkəran

Rayonun prokurorluq işçiləri peşə bayramını yeni uğurlarla, yüksək əhval-ruhiyyə şəraitində qeyd ediblər. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayon prokurorluğunun işçiləri və hüquq-mühafizə orqanlarının əməkdaşları Heydər Əliyev xatirə parkında ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.



Bayram tədbiri rayon prokurorluğunun binasında davam etdirilib. Lənkəran rayon prokuroru Elçin Məmmədov tədbirdə çıxış edərək respublikanın prokurorluq orqanlarının keçdiyi 100 illik şanlı, şərəfli yoldan söhbət açıb. Bildirib ki, ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə qanunçuluğun bərpası, insan və vətəndaş hüquq və azadlıqlarının qorunması, məhkəmələrdə dövlət ittihamının daha prinsipial şəkildə həyata keçirilməsi istiqamətində çox mühüm islahatlar aparılıb.

Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və yüksək qayğısı sayəsində prokurorluq orqanlarının dövlət idarəetməsində rolu və nüfuzu daha da artıb. Qanunçuluğun, ictimai asayişin təminində, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında, cinayətkarlıqla mübarizədə prokurorluq işçiləri prinsipial mövqe tutur, gərgin əmək sərf edirlər.

Dövlətimizin başçısının prokurorluq orqanlarının inkişafına göstərdiyi yüksək qayğı Lənkəran rayon prokurorluğunun kollektivini də ürəkdən sevindirir. Rayonun prokurorluq işçiləri dövlətçilik ideyalarına sadiq qalmaqla göstərilən etimadı doğrultmağa, öz üzərinə düşən vəzifələri məsuliyyətlə, yüksək peşəkarlıqla icra etməyə çalışırlar.

## Masallı

Masallı şəhərinin Heydər Əliyev Mərkəzində prokurorluq işçilərinin peşə bayramına və prokurorluğun yaranmasının 100 illiyinə həsr olunmuş toplantı keçirilib. Tədbir iştirakçıları əvvəl ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.

Masallı Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov tədbiri giriş sözü ilə açaraq prokurorluq işçilərini peşə bayramı münasibətilə təbrik edib. Bildirib ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanları fəaliyyətə başlayıb. Həmin gün Azərbaycan prokurorluğunun yaranması və fəaliyyətə başlaması kimi tarixə düşmüşdür. Bu günün ölkəmizdə təntənəli şəkildə qeyd olunması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Məhz ulu öndərin rəhbərliyilə hüquqi dövlət quruculuğu sahəsində çox mühüm addımlar atılmış, qanunun aliliyinin qorunması, hüquq-mühafizə orqanlarının işinin təkmilləşdirilməsi istiqamətində ardıcıl islahatlar aparılmışdır.



İcra başçısı qeyd edib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev məhkəmə-hüquq islahatlarını uğurla davam etdirərək prokurorluğun inkişafına, dövlət hakimiyyəti və dövlət orqanları sistemində prokurorluğun mövqeyinin və nüfuzunun artmasına yüksək diqqət və qayğı göstərir.

Masallı rayon prokuroru Allahverdi Novruzov prokurorluğun keçdiyi şərəfli yol barədə ətraflı məruzə edib.

Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi hüquqi dövlət quruculuğu və strateji inkişaf konsepsiyasına uyğun olaraq Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən inamla həyata keçirilən ardıcıl və sistemli islahatlar ölkəmizin müstəqilliyinin daha da möhkəmləndirilməsinə, onun davamlı və dayanıqlı inkişafının təmin olunmasına, xalqımızın əmin-amanlığının və rifah halının, vətəndaş həmrəyliyinin yüksəlməsinə zəmin yaratmışdır.



Azərbaycan prokurorluq sisteminin qabaqcıl kollektivlərindən olan Masallı rayon prokurorluğu qanunçuluğun, qanunun aliliyinin qorunması, əhali arasında hüquqi təbliğatın aparılması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Masallı rayon polis şöbəsinin rəisi, polis polkovniki Habil Əmiraslanov, şəhər 2 nömrəli tam orta məktəbin direktoru Mehriban Əzizova, rayon veteranlar şurasını sədri Məmmədağa Şiriyev və Öncəqala ərazi icra nümayəndəsi Xudayar Həsənov və başqaları çıxış edərək prokurorluq işçilərinə bayram təbriklərini söyləyiblər.

Tədbirin sonunda prokurorluq işçilərinin bir qrupuna fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim olunub.

## Astara

Rayonun prokurorluq işçiləri rayon icra hakimiyyətinin və inzibati orqanların rəhbərləri ilə əvvəl ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər. Sonra Heydər Əliyev Mərkəzində ulu öndərin mənalı ömür yolunun və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif məqamlarını əks etdirən sərgi ilə tanış olublar.

Bayram tədbirində Astara rayon prokuroru Qabil Qasımov prokurorluq əməkdaşlarını peşə bayramı münasibətilə təbrik edərək Azərbaycanda milli prokurorluq orqanlarının yaranmasından ətraflı söhbət açıb.



Bildirib ki, Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1918-ci il 1 oktyabr tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanı fəaliyyətə başlamışdır. Mürəkkəb tarixi şəraitdə Azərbaycan Xalq Cümhuriyyətinin Məhkəmə palatasında, Bakı və Gəncə dairə məhkəmələrinin tərkibində olan prokurorluq orqanları öz səlahiyyətləri çərçivəsində mühüm işlər görmüşlər.

Rayon prokuroru Q.Qasımov qeyd edib ki, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu hər iki dövrdə prokurorluq orqanlarına yüksək diqqət və qayğı göstərib.

Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən hüquq islahatları nəticəsində vətəndaş cəmiyyəti quruculuğu, qanunçuluğun və insan hüquq və azadlıqlarının hərtərəfli təmin edilməsində prokurorluq orqanlarının rolu artmışdır.

Astara rayon prokurorluğunun kollektivi də möhtərəm Prezidentin rəhbərliyi ilə həyata keçirilən dövlətçilik siyasətini hərtərəfli dəstəkləyərək təhlükəsizliyin və sabitliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir, müstəqilliyimizin və dövlətçiliyimizin daha da möhkəmlənməsinə öz layiqli töhfəsini verir.

Tədbirdə çıxış edən prokurorluq işçiləri göstərilən dövlət qayğısına görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildiriblər.

**Əlisəfa HƏSƏNOV,**
**"Respublika".**

## Şəmkir

Rayonda 1 oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə tədbir keçirilib.



Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, hüquq-mühafizə orqanlarının, idarə müəssisə rəhbərləri iştirak etdikləri tədbir əvvəlcə Şəmkir şəhərinin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Peşə bayramı daha sonra Şəmkir Heydər Əliyev Mərkəzində davam etdirilib.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Şəmkir rayon prokuroru Azər Hətəmov çıxış edərək peşə bayramı münasibətilə prokurorluq orqanlarında çalışan bütün əməkdaşları, veteranları, onların ailə üzvlərini təbrik edib.

O, bildirib ki, peşə bayramını qeyd edən prokurorluq orqanları həmişə ölkəmizdə həyata keçirilən yeni məzmunlu mütərəqqi islahatların reallaşdırılması istiqamətində xidmət göstərəcək, ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində digər dövlət təsisatları ilə əlaqəli şəkildə yaxından iştirak edəcəklər.

Çıxış edən Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov qeyd edib ki, prokurorluq orqanlarının müstəqil dövlətimizə uyğun formalaşmasında xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əliyevin müstəsna rolu olub. İcra başçısı bildirib ki, Prezident İlham Əliyev də prokurorluq işçilərinə hər zaman diqqət və qayğıkeşliklə yanaşıb. Bunun nəticəsidir ki, prokurorluq əməkdaşlarının bu gün məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb.

Alimpaşa Məmmədov Prezident İlham Əliyevin xüsusi diqqət və qayğıkeşliyini vurğulayaraq bildirib ki, Azərbaycan Respublikası Prokurorluğu qanunun aliliyinin təmininə, insan hüquq və azadlıqlarının təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət edir.

Tədbirin sonunda Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov tərəfindən rayon prokuroru Hətəmov Azər Abuzər oğluna və Qazax Hərbi prokurorluğunda prokuror vəzifəsini icra edən Əhmədov Bəhruz Vidadi oğluna fəxri fərman verilib.

**Eyvaz HƏMİD,**
**"Respublika".**

## Qusar

Prokurorluq işçiləri bu il öz peşə bayramlarını 100 illik yubileylə bir yerdə qeyd edir. Bu münasibətlə respublikamızın hər yerində olduğu kimi, Qusar rayonunda da təntənəli mərasim keçirilmişdir. Yubiley mərasiminə rayon icra hakimiyyətinin rəhbərləri, hüquq-mühafizə orqanlarının rəsmiləri, ictimaiyyət nümayəndələri, prokurorluq işçiləri və veteranları iştirak etmişlər. Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin əzəmətlə ucalan heykəlini ziyarət edərək önünə çiçək dəstələri düzmüşlər. Sonra şəhərin Heydər Əliyev Mərkəzində təntənəli yığıncaq keçirilmişdir. "Azərbaycan Prokurorluğunun şərəfli 100 ili" məruzəsi ilə çıxış edən **rayon prokuroru, ədliyyə müşaviri Mübariz Əhmədov** demişdir ki, ötən bir əsrdə Azərbaycan Prokurorluğu çox çətin, həm də şərəfli bir yol keçmişdir.



Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə prokurorluq orqanlarının fəaliyyətində yeni bir dövr başlamışdır. Məhz onun rəhbərliyi ilə 1998-ci ildə respublikamızda ilk dəfə olaraq prokurorluq orqanlarının yaradılmasına həsr olunmuş geniş yubiley tədbiri təntənəli surətdə keçirilmişdir.

Qusar Rayon Prokurorluğu "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş fəaliyyət istiqamətlərinə əsaslanaraq rayonda qanunun aliliyinin, cinayətkarlığa qarşı effektiv mübarizənin təmin edilməsi, ictimai asayişin, sabitliyin qorunması məqsədilə digər hüquq-mühafizə orqanları ilə birgə zəruri tədbirlər həyata keçirir. Prokurorluq işçiləri bundan sonra da üzərilərinə düşən bütün vəzifələri keyfiyyətlə yerinə yetirəcək, vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edəcəklər.

Rayon icra hakimiyyətinin başçısı **Şair Alxasov**, prokurorluğun fəxri işçisi və veteranı **Zahid Vəliyev** mərasimdə çıxış edərək prokurorluq əməkdaşlarını yubiley və peşə bayramları münasibətilə təbrik etmiş, onlara daha böyük müvəffəqiyyətlər arzulamışlar. Sonda rayon prokurorluğunun bir qrup əməkdaşına RİH-in Fəxri fərmanları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

**Ziyafəddin BAYRAMOV,**
**"Respublika".**